Azərbaycan Respublikası Prezidentinin "Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında" 4 sentyabr 2007-ci il tarixli, 2373 nömrəli Sərəncamını rəhbər tutaraq, 2010-2011-ci dərs ilində "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqələrinin keçirilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Prezidentinin "Ən yaxşı ümumtəhsil məktəbi müsabiqəsinin keçirilməsi Qaydaları və ümumtəhsil məktəblərinə verilmiş mükafatın istifadə istiqamətləri"nin və "Ən yaxşı müəllim müsabiqəsinin keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2008-ci il 25 fevral tarixli, 714 nömrəli Fərmanına uyğun olaraq, ümumtəhsil məktəbləri və müəllimlərin müsabiqələrdə iştirakı ilə bağlı elanın mətni və ona əlavələr təsdiq edilsin (əlavə olunur).

2. 2010-2011-ci dərs ilində müsabiqələrdə iştirak üçün sənədlərin qəbulu 2010-cu il sentyabrın 20-dən başlansın və oktyabrın 20-də başa çatdırılsın.

3. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) müsabiqələrlə bağlı elan və ona əlavələrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını təmin etsin.

4. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

***Misir MƏRDANOV,***
***Azərbaycan Respublikasının təhsil naziri***
***30 avqust 2010-cu il***